Azərbaycan müəllimi.- 2021.- 26 noyabr. S. 1-2.



# Dövlətin gənclərə dəstəyi

## Təhsildə bərabər imkanlar - təhsil tələbə kreditləri

Noyabrın 25-dən təhsil tələbə kreditlərinin verilməsinə başlanılıb. Bu məqsədlə dövlət büdcəsində 80 milyon manat ayrılıb və Təhsil Tələbə Kredit Fondunun (TTKF) hesabına köçürülüb. Sistemin açılması ilə müraciət edən və kredit almaq hüququ olan hər kəsə kredit veriləcək.

Bu barədə prosesə start verilməsi ilə bağlı keçirilən brifinqdə təhsil nazirinin müavini İdris İsayev məlumat verib.

Nazir müavini vurğulayıb ki, təhsil tələbə kreditinin ayrılmasında məqsəd təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılması və təhsilin əhatə dairəsinin genişləndirilməsidir. Bu kredit dövlət dəstəyi ilə çox kiçik faizlərlə və uzun müddətə (təhsil səviyyəsindən asılı olaraq 15-22 il) verilir.

Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş müvafiq qaydaya əsasən, təhsil tələbə kreditinin sosial və standart növləri mövcuddur. Sosial təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr istifadə edə biləcək və onlara kreditlər güzəştli şərtlərlə veriləcək.

⇨Ardı səh.2

# Dövlətin gənclərə dəstəyi



⇦ Əvvəli səh.1

## Təhsildə bərabər imkanlar - təhsil tələbə kreditləri

Bəs, kimlər kredit ala biləcək?

Birinci tədris ilinin ilk semestri üçün tələbələrin standart təhsil tələbə kreditləri bakalavriat səviyyəsi üçün 300-700, magistratura səviyyəsi üçün 50-100, subbakalvriat səviyyəsi üçün isə 110-300 bal aralığında nəticə göstərənlərə veriləcək.

Bu tədris ilində 98 430 nəfər bakalavriat, 12051 nəfər magistratura, 35892 nəfər isə subbakalavriat üzrə təhsil alır: "Ödənişli təhsil alan 146 mindən çox tələbənin 20200 nəfəri dövlət hesabına oxuyur. Onlardan da 17500-ü bakalavr, 1200-ü magistr, 1500-ü subbakalavrdır".

İ.İsayev qeyd edib ki, ödənişli əsaslarla oxuyan tələbələrdən təhsil haqqı ödəyənlərin sayı 126173 nəfərdir: "Onlardan 80930-u bakalavr, 10851-i magistr, 34392 nəfəri isə subbakalavrdır".

Araşdırmalar göstərib ki, kredit almaq hüququ olan daha az olacaq. Akademik borcu olanları nəzərə aldıqda, bu hüquqa malik olan tələbələrin sayı 56208 nəfərdir: "Onlardan 40465 nəfəri bakalavr, 5426-sı magistr, 10317-si isə subbakalavrdır".

Nazir müavini bildirib ki, standart kreditlər illik təhsil haqqının 20 faizini ödəyən tələbələrə veriləcək.

Kreditə görə faizlər müvafiq qaydada hesablanacaq.

Sosial TTK üzrə aşağıdakı güzəştlər tətbiq olunacaq:

- ÜOMG-si 71 bal və yuxarı olan borcalana həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır.
- Təhsilin normativ müddətində bütün tədris semestrlərində ümumi ortalama qiyməti (ÜOMG) 91 bal və yuxarı olan (peşə təhsili müəssisələrində təhsil alanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 və yuxarı olan) borcalanın təhsilin normativ müddətində aldığı TTK-nın 50 faizi hissəsinin ödənişindən azad olunur.

Standart TTK üzrə də güzəştlər var: "ÜOMG-si 91 bal və yuxarı olan borcalana həmin tədris semestri üçün götürdüyü kreditə görə faizlər hesablanmır. Təhsilin normativ müddətində bütün tədris semestri müddətində ÜOMG-si 91 bal və yuxarı olan borcalan təhsilin normativ müddətində aldığı TTK-nın 25 faizi hissəsinin ödənişindən azad olunacaq.

Yuxarı təhsil səviyyəsində əyani təhsil alan

- həqiqi hərbi xidmət
- məhkumluq (4 ildən çox olmayaraq azadlıqdan məhrum etmə və ya azadlığın məhdudlaşdırılması),
- işləyən borcalana münasibətdə hamiləliyə və doğuma görə və uşağın 3 yaşı tamam olana qədər ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyətdə olduğu müddət
- sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlara və birinci dərəcəli əlilliyi olan şəxslərə qulluq müddətində kreditin qaytarılmasına möhlət verilir və kredit müqaviləsinin müddəti həmin müddətə qədər uzadılacaq.

Nazir müavini bildirib ki, möhlət müddətində tələbənin əmək və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olması faktı aşkarlanarsa, möhlət müddəti bu fəaliyyətə başlama tarixindən ləğv ediləcək.

Normativ təhsil müddətindən artıq təhsil alan tələbələrə, təhsil krediti ilə ikinci dəfə eyni təhsil pilləsində təhsilini davam etdirmək istəyənlərə kreditlər verilməyəcək.

İ.İsayev təhsili bitirəndən sonra işə düzələ bilməyənlər üçün bunun güzəşt edilməyəcəyini bildirib: "Biz istəmərik ki, hansısa tələbə işsiz qalsın. Ancaq qanunvericiliyə görə əgər tələbə universiteti bitirdikdən sonra təhsil tələbə kreditini ödəyə bilməsə, bu vəsait məhkəmə qaydasında ondan alınacaq".

Nazir müavini əlavə edib ki, kreditin veriləcəyi müddət tələbənin təhsil pilləsindən və təhsil səviyyəsindən asılıdır: "Ali təhsil pilləsinin bakalavriat səviyyəsində təhsil alan tələbəyə veriləcək bu müddət 14-21 il, magistratura səviyyəsində təhsil alan tələbəyə münasibətdə 12-18 il, orta ixtisas təhsil pilləsində və peşə təhsil pillələrinin subbakalavriat səviyyəsində təhsil alan tələbəyə münasibətdə isə 12-19 il ola bilər".

**Ruhiyyə DAŞSALAHLI**